## 2020-ci il ərzində Naxçıvan Muxtar Respublikasının xarici ticarətinin vəziyyəti

Naxçıvan Muxtar Respublikasının 2020-ci il ərzində 72 ölkə ilə aparılmış ticarət əməliyyatlarının həcmi **510547,4** min ABŞ dolları olmuşdur. Bu müddət ərzində **428520,4** min ABŞ dolları dəyərində mal ixrac, **82027,0** min ABŞ dolları dəyərində mal idxal olunmuş, idxal-ixrac əməliyyatları üzrə müsbət saldo **346493,4** min ABŞ dolları təşkil etmişdir. 2019-cu ilin yanvar-dekabr ayları ilə müqayisədə 2020-ci ilin yanvar-dekabr ayları ərzində ixrac əməliyyatlarının həcmi 0,7% (2981 min ABŞ dolları) artmış, idxal əməliyyatlarının həcmi isə 14,7% (10497,8 min ABŞ dolları) artmışdır.




İxrac əməliyyatlarında xüsusi çəkisi böyük olan dövlətlərdən Gürcüstan Respublikası,İran İslam Respublikası,Türkiyə Respublikası,Əfqanıstan Respublikası,Rusiya Federasiyası,Yəmən Respublikası,Oman Respublikası,Amerika Birləşmiş Ştatları,İraq Respublikası,Türkmənistan Respublikasının və başqalarının adlarını çəkmək olar. Hesabat dövrü ərzində

**428520,4** min ABŞ dolları dəyərində mal ixrac olunmuşdur ki, bunun 325362,2 min ABŞ dollarını, yəni ümumi ixracın 76%-ni sənaye məhsulları, 103158,2 min ABŞ dollarını, yəni ümumi ixracın 24%-ni isə kənd təsərrüfatı məhsulları təşkil etmişdir. Qeyd edək ki, keçən ilin müvafiq dövrü ilə müqayisədə sənaye məhsullarının ixracı **0,6**%,kənd təsərrüfatı məhsullarının ixracı isə **0,9**% artmışdır.

İxrac əməliyyatlarında əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxalın strukturunda əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı kimidir:

| | Dəyər (min ABŞ dolları) |
|---|---|
| 1. Müxtəlif avadanlıqlar və onların hissələri- | 30911,1 |
| 2. Digərləri- | 20275,5 |
| 3. Tikinti materialları - | 10978,0 |
| 4. Ərzaq məhsulları - | 7902,1 |
| 5. Sənaye məhsulları - | 6510,2 |
| 6. Nəqliyyat vasitələri və onların hissələri - | 5450,1 |

İdxal əməliyyatlarında əsas yeri tutan əmtəələrin dəyəri aşağıdakı diaqramda öz əksini tapmışdır:




İdxal əməliyyatlarının ölkələr üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:



Qeyd etmək lazımdır ki, hesabat dövründə idxal əməliyyatlarında özəl sektorunun payı **48244,5** min ABŞ dolları, yəni ümumi idxalın 59%-ni, dövlət sektorun payı isə **29839,6** min ABŞ dolları,yəni ümumi idxalın 36%-ni ,fiziki şəxslər isə **3942,9** min ABŞ dolları, yəni ümumi idxalın 5%-ni təşkil etmişdir.

İdxal əməliyyatlarının sektorlar üzrə bölgüsü aşağıdakı diaqramda öz əksini tapmışdır:

